# Ankara görüşü: Azərbaycan-Türkiyə İttifaqının yeni fundamental kodları



*Azərbaycan Prezidenti İlham Əliyev ötən il keçirilən Zəfər seçkilərində qazandığı mütləq qələbədən sonra ilk rəsmi səfərini qardaş Türkiyəyə etdi. Bu səfər Azərbaycan-Türkiyə əlaqələrinin geosiyasi məntiqə və tarixi kontinuitetə söykənən strateji mahiyyətini əks etdirən simvolik addım idi. İki qardaşın görüşü Cənubi Qafqazda güc balansının yeni mərhələyə keçdiyini və türk dünyasının siyasi konfiqurasiyasında Azərbaycanın aparıcı rolunun daha da gücləndiyini nümayiş etdirdi. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevi bu tarixi qələbə münasibətilə təbrik etməsi səfərin yalnız iki dövlətin strateji tərəfdaşlığının təzahürü deyil, həm də bütövlükdə regionun geosiyasi arxitekturasına təsir edən fundamental faktor olduğunu göstərdi. Bu görüş regional sabitliyin yeni doktrinasının əsas konturlarını müəyyənləşdirərək Ankara və Bakının müttəfiqliyini, həm də siyasi və hərbi sinxronizasiya baxımından birgə hədəflərə yönəldiyini sübut etdi.*

Azərbaycan-Türkiyə münasibətləri tarixin sınaqlarından keçmiş və dəyişməz strateji mahiyyətini qoruyub saxlamışdır. Vətən müharibəsi bu əlaqələrin təkamül trayektoriyasında yeni mərhələnin başlanğıcını qoydu. Tarixi qələbə və onun yaratdığı yeni regional reallıqlar iki dövlət arasında əməkdaşlığın normativ-hüquqi müstəvidə də gücləndirilməsini zərurətə çevirdi. Məhz bu kontekstdə 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə yüksəldərək hər iki tərəfin və birgə hərbi, siyasi, iqtisadi, humanitar və mədəni inteqrasiyanın institusional əsaslarını möhkəmləndirdi.

Bu geosiyasi və normativ kontekstdə Prezident İlham Əliyevin Zəfər seçkilərindən sonra ilk rəsmi səfərini fevralın 18-də Türkiyəyə etməsi Azərbaycan-Türkiyə müttəfiqliyinin tarixi zərurət, həm də geosiyasi qanunauyğunluq olduğunu bir daha təsdiq edir. Bu, Bakı və Ankaranın bölgədəki strateji güc mərkəzi kimi sinxron fəaliyyətini nümayiş etdirməklə yanaşı, gələcək inteqrasiya vektorlarını və müştərək təhlükəsizlik arxitekturasının əsas konturlarını müəyyənləşdirir. Beləliklə, Azərbaycan-Türkiyə ittifaqı artıq ikitərəfli münasibətlər kontekstində deyil, bütövlükdə regional və qlobal siyasi proseslərdə mühüm rol oynayan amilə çevrilir.

Fevralın 19-da Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Ankarada mətbuata bəyanatlarla çıxış etdilər. Ankara görüşü Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının geniş regional və qlobal kontekstdə dərinləşməsinin növbəti təzahürü oldu. İki ölkə liderləri siyasi, iqtisadi və təhlükəsizlik spektrində mühüm məsələləri müzakirə edərək əməkdaşlığın yeni institusional və praqmatik mexanizmlərini müəyyənləşdirdilər. Görüşdə ticarət, enerji, müdafiə sənayesi, regional təhlükəsizlik, nəqliyyat və kommunikasiya sahələrində yeni layihələrin icrası istiqamətində fundamental razılaşmalar əldə olundu. Bu qərarlar Azərbaycan və Türkiyənin bütövlükdə Avrasiya geoiqtisadi sistemində həlledici oyunçu kimi mövqelərini möhkəmləndirmək strategiyasının tərkib hissəsidir.

2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 7,5 milyard dollar təşkil edib. Yaxın perspektivdə isə bu rəqəmin 15 milyard dollara çatdırılması qarşıya qoyulub. Anlaşmaların hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində imzalanan ən mühüm sənədlərdən biri "İkiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"dir. Bu müqavilə, transsərhəd biznes fəaliyyətinin liberallaşdırılmasına və sərmayə mühitinin proqnozlaşdırıla bilən çərçivəyə salınmasına xidmət edir. İş adamları üçün hüquqi və fiskal maneələrin minimallaşdırılması, kapital axınlarının sürətləndirilməsi və investisiya risklərinin azaldılması baxımından bu razılaşma strateji əhəmiyyət daşıyır. Xatırladaq ki, ötən ilin mayında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə ilə Azərbaycan arasında gəlirlərə görə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişi təsdiqləyib.

Ankara görüşündə Orta Dəhliz layihəsinin beynəlxalq geoiqtisadi sistemdə artan strateji əhəmiyyəti xüsusi vurğulandı. Bu marşrut Şərq-Qərb ticarət axınlarının fasiləsizliyini təmin edən logistika xətti olmaqla bərabər, həm də Avrasiya regionunda iqtisadi güc mərkəzlərinin yenidən formalaşmasını sürətləndirən əsas faktorlardan biridir. Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işlək vəziyyətə gətirilməsi və bu magistral üzərindən yükdaşımalarının intensivləşdirilməsi məsələləri regional ticarət konfiqurasiyasının davamlı inkişafı baxımından fundamental əhəmiyyət kəsb edir. Belə ki, ötən il Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun Gürcüstan ərazisindən keçən hissəsində genişmiqyaslı modernləşdirmə işləri uğurla tamamlanmış və xəttin illik yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tona yüksəldilmişdir. Bu mühüm infrastruktur yenilənməsi Orta Dəhliz boyunca yükdaşımaların fasiləsiz və yüksək səmərəliliklə həyata keçirilməsinə zəmin yaradır. BTQ xəttinin Gürcüstandan keçən seqmentində aparılan təmir və modernləşdirmə işləri beş əsas mərhələni əhatə etmişdir: Marabda-Tetriskaro, Tetriskaro-Tsalka, Tsalka-Axalkalaki, Axalkalaki-Kartsaxi və Axalkalaki kompleksi. Xüsusilə 110 hektar ərazini əhatə edən Axalkalaki kompleksi çərçivəsində infrastrukturun gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır - estakada, iki suötürücü, dörd körpü, iki yol ötürücüsü və iki yeraltı piyada keçidinin tam modernləşdirilməsi, qardan mühafizə divarlarının inşası və 17,9 km uzunluğunda yeni kontakt şəbəkəsinin quraşdırılması, Dartı yarımstansiyasının gücünün artırılması, 48 km uzunluğunda stansiya daxili yolların və 3,9 km avtomobil yolunun inşası. Eyni zamanda layihənin icrasında müasir texnologiyalar tətbiq olunmuş, Avropa istehsalı olan yüksək səviyyəli avadanlıqlardan istifadə edilmişdir.

Modernləşdirmə işlərinin tamamlanmasının ardınca 20 may 2024-cü il tarixində Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yükdaşımalar bərpa olunmuş və ilk yük qatarı Türkiyəyə yola salınmışdır. 20 konteynerdən ibarət bu qatar Bakıdan Qarsa 632 ton plastik xammal çatdırmışdır. Modernləşdirilmiş BTQ dəmir yolu xətti Çin və Mərkəzi Asiyadan Avropaya yönələn yüklərin əsas tranzit marşrutlarından biri kimi Orta Dəhlizin strateji əhəmiyyətini artırır. Azərbaycan üzərindən daşınan yüklərin həcmi artır və bu proses regionun geoiqtisadi sistemdəki mövqeyini gücləndirir. Bu çərçivədə 2024-cü ilin iyun ayından etibarən Sian limanı ilə yanaşı, Çinin Şərqindəki ən böyük limanlarından biri olan Lianyungang limanından yüklərin test rejimində Orta Dəhliz vasitəsilə daşınmasına başlanılmışdır. Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi işləri yekunlaşmaq üzrədir və bu layihə Azərbaycanın beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi mövqeyini daha da gücləndirəcək. Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işlək vəziyyətə gətirilməsi və bu magistral üzərindən yükdaşımaların intensivləşdirilməsi məsələləri, regional ticarət konfiqurasiyasının davamlı inkişafı baxımından fundamental əhəmiyyət kəsb edir ki, bu da Ankara görüşündə müzakirə edilən prioritet məsələlərdən biri idi.

Bu qərarlar bir tərəfdən Mərkəzi Asiyadan Avropaya uzanan ticarət və logistika şəbəkələrinin şaxələndirilməsi və Çin-Avropa tədarük zəncirinin dayanıqlılığının artırılması baxımından mühüm komponent kimi çıxış edirsə, digər tərəfdən Azərbaycan və Türkiyəni qlobal iqtisadi güc mərkəzlərinin kəsişmə nöqtəsində əsas geostrateji oyunçulara çevirir. Beləliklə, Bakı və Ankara bu prosesi sadəcə regional tranzit infrastrukturunun inkişafı kontekstində deyil, həm də yeni iqtisadi reallıqları formalaşdıran və geoiqtisadi dinamikanı tənzimləyən sistemformalaşdırıcı aktorlar qismində idarə edirlər.

Ankara görüşündə Azərbaycan-Türkiyə hərbi-strateji əməkdaşlığının keyfiyyətcə yeni mərhələyə keçidi və müdafiə sənayesində birgə istehsalat imkanlarının genişləndirilməsi məsələləri də, həmçinin xüsusi diqqət mərkəzində oldu. Bu əməkdaşlıq iki dövlətin milli təhlükəsizlik doktrinalarının sinxronizasiyası və birgə müdafiə mexanizmlərinin institusional şəkildə gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illər Azərbaycan və Türkiyə arasında müdafiə sahəsində müşahidə edilən dinamik inkişaf regionda yeni güc balansının formalaşmasına və təhlükəsizlik arxitekturasının strateji müstəvidə yenidən dizayn edilməsinə səbəb olmuşdur. İki ölkənin müdafiə qabiliyyətlərinin inteqrasiyası yalnız ikitərəfli münasibətlərin möhkəmlənməsi deyil, həm də daha geniş geosiyasi məkanda təsir imkanlarının artması ilə nəticələnir. Görüş zamanı Prezident İlham Əliyev Azərbaycanın müasir hərbi texnologiyalara keçid strategiyasının vacibliyini vurğulayaraq seçkilərdən cəmi iki gün sonra iştirak etdiyi ilk tədbirin "Bayraktar Akıncı" PUA-sının təqdimatı olduğunu xatırlatdı. Artıq bu yüksək texnologiyalı pilotsuz uçuş aparatlarının Azərbaycanın hava məkanında operativ fəaliyyət göstərməsi Bakının hərbi konsepsiyasının yeni mərhələyə keçdiyini və hücum-ağırlaşdırılmış müdafiə strategiyasına üstünlük verdiyini nümayiş etdirir. Bu transformasiya Azərbaycanın asimmetrik hərbi güc konsepsiyasına əsaslanan müasir müdafiə modeli qurduğunu və regionda güc balansının yeni parametrlər üzrə formalaşmasına təsir etdiyini sübut edir.

Azərbaycan və Türkiyə müttəfiq dövlətlər, həm də vahid geostrateji təhlükəsizlik konsepsiyasına malik aktorlar kimi çıxış edirlər. Hərbi sənayedə dərinləşən əməkdaşlıq Cənubi Qafqazda yeni təhlükəsizlik mexanizmlərinin formalaşmasına zəmin yaradır.

Bundan əlavə, görüşdə "Baykar Holding"in Azərbaycanda təlim, tədris və təmir mərkəzinin yaradılması üzrə aparılan işlər müzakirə edildi və bu infrastrukturun istifadəyə verilməsinin planlaşdırıldığı bildirildi. Bu Azərbaycanın yalnız hərbi-texnoloji idxal edən ölkə deyil, həm də qabaqcıl müdafiə sistemlərinin lokal istehsal və texnoloji transfer mərkəzinə çevrilməsi prosesini sürətləndirəcək. Eyni zamanda, iki ölkənin Silahlı Qüvvələrinin birgə təlimlərinin davam etdirilməsi və müdafiə sənayesində koordinasiyanın dərinləşdirilməsi məsələləri diqqət mərkəzində oldu. Fevral ayının əvvəlində Türkiyədə keçirilən "Qış təlimi - 2025" beynəlxalq təlimlərində Azərbaycan Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) hərbi qulluqçularının iştirakı bu fikirlərin təsdiqidir.

Görüş zamanı Azərbaycanın Türkiyə istehsalı olan yeni nəsil silah və texnologiyalardan istifadəsi, eyni zamanda yerli hərbi sənayenin inkişafına dair birgə layihələrin həyata keçirilməsi məsələləri prioritet istiqamətlər kimi müəyyənləşdirildi. Bu əməkdaşlıq regionda Azərbaycan və Türkiyənin yalnız hərbi qüdrətini artırmaqla geosiyasi dinamikanın Ankara-Bakı tandeminin lehinə dəyişməsinə və Cənubi Qafqazda yeni hərbi-strateji status-kvonun formalaşmasına zəmin yaradır.

Azərbaycanın qlobal enerji təhlükəsizliyi strategiyasında Türkiyə mərkəzi aktor olaraq çıxış edir. Ankara görüşü zamanı liderlər regional enerji inteqrasiyasının dərinləşdirilməsi və Cənubi Qafqazın Avrasiya enerji xəritəsindəki rolunun gücləndirilməsi məsələlərinə xüsusi diqqət yetirdilər. Xüsusilə Naxçıvanın enerji təchizatının diversifikasiyası çərçivəsində elektrik enerjisinin Türkiyə istiqamətində ixracı və İğdır-Naxçıvan təbii qaz boru kəmərinin tezliklə istifadəyə verilməsinin strateji əhəmiyyəti vurğulandı. Bu layihələr Türk dünyasının enerji şaxələndirilməsi siyasətində yeni geoiqtisadi reallıqların formalaşmasını ifadə edir.

Azərbaycanın Avropa qaz ixracatçısı kimi mövqeyi getdikcə güclənir və bu prosesdə Türkiyə mühüm tranzit məkan rolunu oynayır. Görüş zamanı TAP və TANAP kəmərlərinin ötürücülük qabiliyyətinin artırılması və yeni qaz marşrutlarının yaradılması məsələsi gündəmə gətirildi. Bu enerji resurslarının tədarükünün genişlənməsi, eyni zamanda Cənubi Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyində əsas elementə çevrilməsi baxımından da xüsusi önəm kəsb edir. Bakı-Tbilisi-Qars dəmir yolunun uzunmüddətli bağlanması qlobal tədarük zəncirlərinin fasiləsizliyinə ciddi təsir göstərmiş və Orta Dəhlizin tranzit potensialını zəiflətmişdi. Liderlər BTQ dəmir yolu xəttinin tam gücü ilə yenidən fəaliyyətə başlaması bu problemləri də aradan qaldırdı. Eyni zamanda Zəngəzur dəhlizinin açılması məsələsi strateji gündəmin əsas mövzularından biri kimi ön plana çıxdı. Bu marşrutun reallaşması, Türkiyə və Azərbaycanın logistik qovşağa çevrilməsi, Avrasiya yükdaşımalarında yeni güc mərkəzinin formalaşması və regional ticarət axınlarının yenidən qurulması baxımından tarixi əhəmiyyət daşıyır.

Ankara görüşü yalnız ikitərəfli münasibətlərin gücləndirilməsi ilə məhdudlaşmadı, eyni zamanda Türk Dövlətləri Təşkilatının (TDT) gələcək strateji hədəfləri geniş müzakirə olundu. Liderlər TDT-nin geosiyasi və geoiqtisadi potensialını artırmaq üçün koordinasiyalı fəaliyyətin vacibliyini vurğuladılar. Bundan əlavə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) beynəlxalq təşkilatlarda iştirakına verdiyi dəstəyə görə təşəkkür etdi və digər Türk dövlətlərini də bu siyasi xətti dəstəkləməyə çağırdı. Bu Türk dünyasının beynəlxalq arenada kollektiv siyasi güc kimi möhkəmlənməsi və geosiyasi spektrdə daha geniş təsir imkanlarına sahib olması istiqamətində yeni mərhələyə keçidi göstərir.

Beləliklə, Ankara görüşü Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yalnız ikitərəfli deyil, eyni zamanda qlobal geosiyasi düzənə təsir edən çoxvektorlu əməkdaşlıq modelinə çevrildiyini bir daha nümayiş etdirdi. Sübut etdi ki, Azərbaycan və Türkiyə təkcə qardaş xalqların təmsilçiləri deyil, eyni zamanda qlobal və regional siyasətin əsas vektorlarını müəyyən edən geostrateji aktorlardır. İmzalanan yeni sazişlər enerji diplomatiyası, ticarət əlaqələrinin dərinləşdirilməsi, müdafiə sənayesinin sinxronizasiyası və nəqliyyat infrastrukturunun inteqrasiyası baxımından mühüm tarixi mərhələni ifadə edir. Bu tərəfdaşlıq artıq klassik ikitərəfli münasibətlər çərçivəsini aşaraq beynəlxalq sistemdə yeni geosiyasi balans formalaşdıran modelə çevrilməkdədir. Azərbaycan-Türkiyə strateji ittifaqı regional kontekstdən çıxaraq qlobal enerji təhlükəsizliyi, tranzit marşrutlarının diversifikasiyası və beynəlxalq geosiyasi dinamikaların yenidən formalaşdırılması kimi fundamental sahələrdə mühüm təsir gücünə malikdir. Xüsusilə, Şuşa Bəyannaməsi çərçivəsində qurulan yeni təhlükəsizlik və əməkdaşlıq platforması, iki dövlətin regional güc mərkəzindən qlobal aktora transformasiya prosesini daha da sürətləndirir. Bu strateji xəttin gələcək illərdə daha da güclənəcəyi və Azərbaycan-Türkiyə tandeminə yeni geosiyasi imkanlar qazandıracağı şübhəsizdir.

Beləliklə, Ankara görüşü Azərbaycan və Türkiyənin müttəfiqliyinin yalnız taktiki əməkdaşlıq səviyyəsində deyil, həm də geoiqtisadi və geosiyasi arxitekturanın formalaşdırılmasında fundamental determinant olduğunu bir daha təsdiqlədi. Bu ittifaq regional güc balansını yenidən dizayn edən və Türk dünyasının inteqrasiya prosesində mərkəzi rol oynayan yeni bir qüvvə kimi dünya siyasətində öz təsirini genişləndirməkdə davam edəcək.

**Tacir SADIQOV,**
**"Respublika".**